Qulu Məhərrəmlini təbiiliyinə görə dağa, daşa yox, elə Zəngilan çinarlarından birinə bənzədirəm. Bildiyimə görə Zəngilanda təbii çinar meşəsi var. Ümumiyyətlə, çinar ağacında bir əzəmət var, qürur var. Və Qulu Məhərrəmlini tanıdığım gündən görmüşəm ki, qürurludur, yenilməzdir. Bəs onda niyə Qulu Məhərrəmlini Zəngilan çinarlarından birinə bənzətməyim.

Yəqin ki, Zəngilanda çoxlu adlı çinarlar varmış. Yaşına görə, böyüklüyünə görə, kölgəliyinə görə adlanan, tanınan çinarlar.

Bu gün bizim teleməkanımızda bir çinar da elə Qulu Məhərrəmlidir.

* * *

Açığı Azərbaycan televiziyası deyəndə bir neçə aparıcı telejurnalistin adı gözlərimin önündə canlanır. Bunlardan biri də, bəlkə də, birincisi də Qulu Məhərrəmlidir. İstər siyasətdən, istər ictimai həyatın ən müxtəlif tərəflərindən bəhs edən çıxışlarında Qulu Məhərrəmlini çevik düşüncə və aydın fikir sahibi kimi görürəm. Bu, məni sevindirir. Çünki beləsini ya az görürəm, ya da heç görə bilmirəm. Açığı mənə qəribə gəlir; Azərbaycan dilində şirin, isti cümlələrlə danışmaq o qədər çətin olubmu ki, bizim aparıcılar danışıqlarında əllaməçilik edirlər. Hətta bir çox hallarda biz onların nə dediklərini belə, demək olar ki, anlaya bilmirik. Bəzən elə ifadələr, elə sözlər işlədilir ki, adamın lap "əti tökülür". Belələrinə xalq arasında deyirlər ki, düşük adamdır, yüngüldür, ağzından şorba tökülür... və i.a. və s. Belə məqamlarda müstəqillik dövrü Azərbaycan televiziyasında Qulu Məhərrəmlinin yeri və rolu necə olub. Onun Ulu Öndərlə çoxlu səyahətləri, xarici ölkələrlə bağlı təəssüratları yaddaşlardadır və varisliklə yeni nəsillərə ötürülür. Demək, Qulu Məhərrəmli kimi jurnalistlərin yazdıqları, yaratdıqları dərslik kimi öyrənilməlidir.

İnsafən, Qulu Məhərrəmlinin zəngin elmi aləmi var. Çoxlu kitabları, dərslikləri, monoqrafiyaları... jurnalistika aləminə gəlmək istəyən hər kəs üçün stolüstü kitablardır. Əlbəttə, o kəslər üçün ki, onlar elmi, nəzəri hazırlıqla teleməkana gəlmək istəyirlər. Mən Qulu Məhərrəmlinin ssenari müəllifi olduğu bəzi sənədli filimlərin adlarını çəkmək istəyərdim: "Qobustan" (1997), "Müstəqil Azərbaycan" (1997), "Antropoloji sənəd" (1999), "Məyusluq" - Nəcəf Nəcəfov (2001),



*Şəddat CƏFƏROV,*
*poliqrafçı alim, yazıçı-jurnalist*

# ÇEVİK DÜŞÜNCƏ, AYDIN FİKİR

## *yaxud Zəngilan çinarlarından biri*

Qulu Məhərrəmli mənim yadıma düşür.

Mənim məqsədim Qulu Məhərrəmli haqqında tərifli sözlər demək deyil, ancaq ədəbi ictimaiyyətin və teleradio rəhbərlərinin diqqətinə çatdırmaq istəyirəm ki, işə götürdükləri aparıcıları Qulu Məhərrəmli kimi mütəxəssislərin testindən, imtahanından keçirsinlər. Qoy teleradio aləminə gəlmək istəyən hər bir gənc **Qulu Məhərrəmlinin jurnalistika məktəbini** öyrənsin. Onun artıq yaddaşlarda əbədiləşmiş - aparıcısı olduğu verilişlərin yaddaş salnaməsinə səyahət eləsin, onun sözə yanaşma, sözlə mənanı ifadəetmə, intonasiya ilə məqsədi çatdırma imkanlarını heç olmasa, qismən mənimsəsinlər.

Mən poliqrafçıyam, yəni naşirəm. Qəzet, əsasən də kitab nəşri ilə məşğulam. Amma, onu da yaxşı başa düşürəm ki, zaman audio, video imkanlara daha çox meydan verir. Ancaq bizim mənəvi mühitimizi etibar elədiyimiz ən üstün məkan teleməkandır. Əgər teleməkana dünya bu qədər öz "mənliyini" etibar edirsə, biz bu məkanın sahiblərini təsadüfi adamlar sırasında görə bilmərik.

Mən bir neçə təklifimi Qulu Məhərrəmlinin 65 illik yubileyi ilə bağlı qeydlərimi yazarkən mütləq diqqətə çatdırmaq istəyirəm: birincisi, Qulu Məhərrəmli kimi telejurnalistlər heç televiziyada işləməsələr belə, televiziyanın ehtiyat - məsləhətçi bazasında daimi sakin olmalıdırlar. Onların ekspert rəyi ayrı-ayrı verilişlər üçün əsas götürülməlidir. İkincisi, Qulu Məhərrəmli kimi jurnalistlər ideya mənbəyi kimi diqqətdə olmalıdır. Çünki, belə jurnalistlərin klassik təbiəti verdikləri ideyalarda həm yeniliyi qəbul edəcək, həm də varisliyi təmin edəcək. Üçüncü, bir məqamı da qeyd etmək istəyirəm, yeni gələn nəsil onsuz da kimin kim olduğunu yaxşı bilir. Bilirlər ki, Azərbaycana sonsuz sevgi ilə (2006)... bu onun ssenarilərinin çox az bir qismidir. Qulu Məhərrəmlinin sənədli filmlərinin ssenariləri Azərbaycana və Azərbaycan tarixinə sevgi dərsliyidir. Sadəcə, xarakterik olduğu üçün yada saldım. Hələ titanik bir zəhmətlə başa gəlmiş monoqrafiyalarını, dərsliklərini, dərs vəsaitlərini, elmi-publisistik əsərlərini demirəm.

Qulu Məhərrəmlinin özünə məxsus lüğətçilik yolu var. Mən tədqiqatçılarımızın diqqətini Qulu Məhərrəmlinin lüğətlərinə də cəlb etmək istəyərdim: "Kino, televiziya, radio terminləri" (2002), "Mediada işlənən alınma sözlər" (2008), "Azərbaycan dilinin frazeologiya lüğəti" (R.İsmayılovla birgə, 2015-2018) kimi kitabları nəinki yeni nəslə, elə mənim təmsil elədiyim yuxarı nəsildən üzü bəri hər birimizə gərəkdir. Gözəl elmi-publisistik əsərləri də məni valeh eləyir: "Danışır Təbriz" (2004), "Zamanın rəngləri" (2013), "Jurnalistikanın əlifbası" (2014)... daha hansını deyim?!

Doxsanıncı illərin gərgin zamanında o, "Azərbaycan qaçqınları" filminin ssenarisini verdi. Mənə elə gəlir ki, bu filmin təsiredici imkanı o qədər yüksəkdir ki, Azərbaycan diplomatları üçün bu imkan ən üstün silahdır dünya hədəfinə qarşı. Bir də onu düşünürəm ki, bu filmin ssenarisi ona görə çox təsirlidir və yaddaqalandır ki, Qulu Məhərrəmlinin özünün də yurdu bu gün işğal altındadır. Mən təsəvvür edirəm Azərbaycan xəritəsindəki Zəngilanı... onun zəngin təbiəti, möhtəşəm çinarları Qulu Məhərrəmlinin mənəvi mühitinin əsas görünən tərəfləridir.

Bəli, Qulu Məhərrəmli özü məktəb olan simadır, prinsipialdır, əqidəlidir, ən başlıcası, yenilməzdir...

Və Qulu Məhərrəmli Zəngilan çinarlarından biridir.

**31.10.2019**